# “Bilqamıs” və “Oğuz Kağan” dastanlarında kosmoloji və etnoloji proseslərin əksi

**Nəzrin Əliyeva**
E-mail: nezrina890@gmail.com

**Annotasiya.** “Bilqamıs” və “Oğuz Kağan” dastanları dünya epos mədəniyyətinin zəngin ənənələrini özündə əks etdirməklə, qədim insanların mifik düşüncə sistemində kosmoloji və etnoloji proseslərin izini daşıyan önəmli mənbələrdən, yaradıcılıq nümunələrindən biridir. Apardığımız tədqiqat işində qeyd etdiyimiz arxaik epos nümunələrində qədim türklərin kosmosun və insanın yaranması ilə bağlı ilkin təsəvvürlərinin əksi məsələsi araşdırmaya cəlb edilmişdir. Mifoloji düşüncənin, element və obrazların epos mətnlərinə transformasiya edilməsi, bunun müqabilində də dastan yaradıcılığının milli özünüdərk prosesində tutduğu önəmli yer müəyyənləşdirilmişdir. Araşdırmada şumerlər və qədim türklərin dastan yaradıcılıqlarının oxşarlıqları, Şumer tarixi ilə türk tarixinin yaxınlığı “Bilqamıs” və “Oğuz Kağan” dastanlarının müqayisəsində tədqiqata cəlb olunmuşdur.
**Açar sözlər:** Bilqamıs, Oğuz Kağan, etnos, mifologiya, dünya

**Məqalə tarixçəsi:** göndərilib – 02.12.2021; qəbul edilib – 13.12.2021

# Reflection of cosmological and ethnological processes in “Bilgamis” and “Oghuz Kagan” epics

**Nazrin Aliyeva**
E-mail: nezrina890@gmail.com

**Abstract.** The epics “Bilgamis” and “Oguz Kagan” reflect the rich traditions of the world’s epos culture, and are of important sources and samples containing of the cosmological and ethnological processes in the mythical system of thought of ancient people. In the mentioned archaic epos examples the ancient turks’ initial ideas about the creation of space and man are involved in the study. The transformation of mythological thought, elements, images into epos texts, in return, the important place of the epic in the process of national self-awareness has been identified. In the study, the similarities of the eposes by the sumerians and the ancient turks, the closeness of the Sumerian history and the history of the turks were invovled in the study of the comparison of the epics “Bilgamis” and “Oguz Kagan”.
**Keywords:** Bilgamis, Oguz Kagan, ethnos, mythology, world

**Article history:** received – 02.12.2021; accepted − 13.12.2021

## Giriş / *Introduction*

Yaşadığı dövr, məkan və zamandan asılı olmayaraq, bəşər övladı daim onu maraqlandıran suallara cavab axtarmağa can atmışdır. Görəsən dünya necə yaranıb? Onu kimsə yaradıb, ya öz-özünə yaranıb? Bəs Günəş və Ay necə? Və yaxud insan necə yaranıb? Onu damı bir yaradan varmı, yaxud kiminsə tərəfindən yaradılıb? və s. Bunun kimi saysız-hesabsız suallar daim ilk insanları düşündürmüş və təkamül prosesinin müxtəlif mərhələlərində insanlar bu sualları cavablamağa çalışmışlar. Qədimdə yaşayan ibtidai insanlar da yaxşı dərk edirdilər ki, insanın yaranmasını dünyanın yaranmasından ayrı təsəvvür etmək olmaz və ya əksinə. Lakin ilkin insanın bu sualları cavablamaq üçün anlama, qavra-

ma imkanı da sadə, primitiv səviyyədə olmuşdur. Bunun nəticəsidir ki, kosmosu, onun qanunauyğunluqlarını, insanın yaradılış prosesini dərk etmək üçün insan öz təxəyyülündən istifadə etmiş və müxtəlif hekayələr uydurmuşdur. Buna görə də müasir zamanda mifləri çox vaxt yalançı hekayələr, uydurmalar adlandırırlar. Əsas məqam isə bundan ibarətdir ki, miflər, əslində, elə mövcud olduğu dövrün insanının yaşayış tərzi, düşüncə forması idi. Bəzi tədqiqatçılar qeyd edirlər ki, miflər zamanın doğru hekayələridir, mifin doğruluğunun nə tarixi, nə də məntiqi bir qaynağı vardır. Və yaxud A.Losev isə belə yazır: "Mif hadisənin fantastik izahı olsa da, ibtidai insanın ətraf-aləmi, gerçəkliyi qavrama cəhdinin subyektiv nəticəsidir" [14, s.27].

**Əsas hissə / *Main Part***

Mif ulu əcdadlarımızın həyata baxış tərzi, ətraf aləmi, hadisələri anlama forması, həyata baxış tərzi olmuşdur. "Mif – əsatir hər bir mədəniyyətin həm təməlini, həm də müasir məzmununu müəyyənləşdirən ilkin təfəkkür hadisəsidir" [2, s.233]. Ümumən, müasir elmi-nəzəri düşüncədə mifologiya deyildikdə, ilkin olaraq, mifopoetik düşüncə sistemi və bunun nəticəsində ifadə olunan mifik dünya modeli nəzərdə tutulur. Mifik dünya modelini ifadə edən mətnlər isə heç də hər zaman tam formada bizə gəlib çıxmayıb, lakin onun yalnız bərpası mümkün olmuşdur.

Ümumiyyətlə, əksər mifoloji ənənələrdə, eləcə də, türk mifologiyasında kosmoloji prosesin ifadəsi, əsasən, amorf su mühitindən qurunun yaranması, xaosun kosmosa çevrilməsi yönündə ifadə olunmuşdur. Bu prosesdə ikinci addım isə yerin göydən ayrılmasıdır. Əvvəlcə yerin dünya okeanından ayrılması, daha sonra yer ilə göyün bir-birindən ayrılması üç məkan kəsiminin formalaşmasına gətirib çıxarmışdır: yeraltı, yer üzü dünya və göy. Tanrının, mədəni qəhrəmanların və insanların fəaliyyəti də hər üç məkanda gerçəkləşərək nəticə etibarilə kainatı yaratmış olur. Burada əsas diqqət edəcəyimiz məqamlardan biri nizamlanmadır. Çünki kosmoqonik prosesin ilkin mərhələsi başa çatarçatmaz artıq bu məkanların nizama salınması başlanır: yəni, əvvəlcə yer dünya okeanından ayrılır, daha sonra yer üzü göy üzündən ayrılır və bunların hər ikisinin ortasında insan yaranmış olur. Beləliklə, kosmoloji və etnoloji proses ardıcıl baş verir, biri digərinin yaranması üçün təkan vermiş olur. Bizə gəlib çatan ilkin yazılı mənbələrimizdən olan Orxon-Yenisey abidələrində törənişin belə bir ardıcıllığı göstərilir: "Yuxarıda mavi göy, aşağıda qonur yer yaradılanda, ikisinin arasında insan oğlu yaradıldı. İnsan oğulları üzərində mənim babalarım – Bumın xaqan və İstəmi xaqan başçı oldular" [6, s.341]. Burada kosmoloji prosesin tam təsviri verilmir, amma bilavasitə onun nəticəsini görmüş oluruq.

Türk xalqlarının mifik düşüncəsinin özəyini və əsas məzmununu Tanrıçılıq təşkil edir. Dünyanın bir çox xalqlarından fərqli olaraq, türk mifologiyasında allahlar panteonu yoxdur. Türklər tanrını göyün sahibi və tək bir yaradıcı varlıq kimi dərk etmişlər. Qədim türklərdə Tanrı kəlməsi hərfi mənada həm göy, həm də Allah anlamlarını ifadə etmişdir. Türklərin tək bir yaradana inanmaları və onu kainatın yeganə yaradıcısı olaraq "Tanrı" (Tenqri, Dingir, Tiqir, Tenri və s.) adlandırmaları haqqında ilkin məlumatlar bizə qayaüstü rəsmlərdən, mixi yazılardan, arxeoloji qazıntılar və etnoqrafik mənbələrdən məlum olur. "Bir çox araşdırmaçılar bu xüsusiyyəti göz önündə tutaraq "Tanrı" kəlməsi ilə əslində "Göy Tanrı" anlayışının ifadə edildiyi fikrini irəli sürmüşlər" [2, s.237].

Mifoloji təsəvvürlərin izləri müəyyən mənada özünü əfsanə, rəvayət, nağıl və dastan mətnlərinə transformasiya edilmiş şəkildə göstərir. İstər ilkin yaradılış, dünyagörüşlə bağlı olan dastanlarda, istərsə də nisbətən sonrakı dövrdə formalaşan ("Koroğlu", "Manas", "Alpamış" və s.) dastanlarda mifoloji ünsürlər, obrazlar və motivlərlə olduqca zəngindir. Ümumiyyətlə, dastan, epos mədəniyyətinin milli özünüdərk prosesində əhəmiyyətli rolu danılmazdır. Qədim türk epos nümunələri hələ e.ə. I minilliyin ortalarında formalaşmış, həmin dövrdən təqribən bizim eranın I minilliyin ortalarına qədər zəngin inkişaf yolu keçmişdir. Bu mətnlərin bilavasitə davamı olan qədim türk dastanları da e.ə. I minilliyin ortalarına qədərki dövrdə meydana çıxmışdır. Müxtəlif mənbələrdən günümüzə qədər gəlib çatmış əsas qədim dastan nümunələri bunlardır: "Yaradılış", "Alp Ər Tonqa", "Oğuz Kağan", "Ərgənəkon", "Şu", "Siyenpi", "Köç", "Bilqamıs" və s.

“Yaradılış” dastanında qədim türklərin dünyanın yaranması ilə bağlı epik təsvirləri əks olunmuşdur. Bu təsəvvür “xaosdan kosmosa” məntiqinə əsaslanır və dünya xalqlarının əksəriyyətinin epos yaradıcılığında bu məntiqə əsaslanırlar. Qədim türk insanı inanır ki, dünyanı Tanrı (Qara xan) yaratmışdır və bütünlükdə hər şey onun iradəsinə tabedir.

Türk xalqlarının çox zəngin qəhrəmanlıq tarixi, eyni zamanda bu qəhrəmanlıqdan doğan hisslərin təcəssümü olan xeyli sayda dastanları vardır. Qədim Şumerlərin də qəhrəmanlıq tarixi zəngindir. S.N.Kramer özünün Şumerlərin mədəniyyəti, tarixi haqqında yazdığı əsərində qeyd edir: “Burada və bundan əvvəlki fəsillərdə haqqında söhbət gedən Şumer qəhrəmanları haqqında Epos dünya tarixi və ədəbiyyatında daha bir qəhrəmanlıq əsri – “Şumer qəhrəmanları əsri” açır. Vaxta görə o, e.ə. III minilliyin birinci rübünə təsadüf edir, deməli, hind-avropa “qəhrəmanlıq əsrlərinin” ən qədimi – Yunanıstan epik dövrünü 1500 il qabaqlayır” [10, s.239]. Eyni zamanda qeyd edir ki, bütün xalqların qəhrəmanlıq tarixləri oxşardır, çünki onlar hər biri eyni mənbədən, eyni başlanğıcdan gəlir, bu da Şumer qəhrəmanlıq tarixidir. Doğrudan da, diqqətlə baxsaq, əslində qədim türk qəhrəmanlıq dastanları olan “Oğuz Kağan”, “Manas”, “Koroğlu”, “Kitabi-Dədə Qorqud” və Şumer qəhrəmanlıq eposları arasında oxşarlıqları sezmək mümkündür.

E.ə.VI-II minilliklərdə formalaşan, 12 gil lövhə üzərində yazılmış “Bilqamıs” dastanı günümüzə qədər gəlib çatmış ilk yazılı dastan olmasından əlavə, eyni zamanda Şumer xalqının mədəniyyəti, mifologiyası baxımından önəmli məlumatları da özündə əks etdirir. Eposun özündə daşıdığı önəmli məlumatlardan biri də “Tufan” hekayəsi, əfsanəsidir. Bu əfsanədə bəhs edilən Nuh Tufanı, bəzi dəyişikliklərlə dini kitablarda eynilə əks olunur. Nuh əyyamı haqqında hekayə XI lövhəciyin əsas hissəsini təşkil edir. Qədim Şumerlərin ədəbi-bədii, həmçinin tarixi yaradıcılıq salnaməsi olan “Bilqamıs” dastanının mətni tam formada əldə edilməmişdir. Sonrakı dövrlərdə dastanın akkad və hett dillərinə tərcümə olunmuş variantları əsasında müxtəlif versiyaları bərpa edilmişdir. Dastanın tərcümə variantlarında müxtəlif müdaxilələr, təhriflər edilməsinə baxmayaraq, mütəxəssislər daha çox onun akkad versiyasına əsaslanmağı üstün tuturlar. Dastanın adı onun əsas qəhrəmanı Bilqamısın adı ilə adlanır. Bu qəhrəmanın adı gil lövhələrdən müxtəlif cür oxunmuşdur, lakin hamısında onun mənası eyni – yəni, “hər şeyi görən, hər şeyi bilən” deməkdir. Dastanın lap başlanğıcında Bilqamıs aşağıdakı kimi təsvir edilir:

*Dünyanın bu başından, o başına dolaşmış,*
*Dənizləri adlamış, uca dağları aşmış,*
*Dostu ilə birlikdə düşmənləri haqlamış,*
*Müdrikliyə yetişmiş, dünyanı dərk eləmiş,*
*Bir insan haqqındadır bizim bu dastanımız [4, s.16].*

Bu hər şeyi görən və bilən insan dastanın baş qəhrəmanıdır, onun dostu Enkidu isə dastanın ikinci qəhrəmanıdır. Parçadan məlum olduğu kimi, Bilqamıs fəlsəfi düşüncələrə malik olan şəxsiyyətdir və müdriklik zirvəsinə ucalmışdır. Bu xüsusiyyətlərdə dostu Enkidu da ondan geridə qalmır. Dastana görə, Bilqamıs nizamlı, ölçülü vücuda malik olmuşdur, Tanrılar onu kamil formada – üçdə ikisi Tanrı, üçdə biri insan formasında yaratmışdılar. Şamaş ona sevgi, Ea, Enlil və Anu isə ona ağıl vermişdilər. “O, insandır, yarıdan çoxu Tanrıdır ancaq” [4, s.18]. Eposda Bilqamıs həm də qəddar, zülmkar bir hökmdar kimi təsvir olunur. Bu vəziyyətdən narahatlıq duyan insanlar Bilqamısdan Tanrılara şikayət edirlər və ondan kömək istəyirlər. Tanrılar İlahə Arurunu çağırırlar və ondan Bilqamısa qarşı gələcək bir rəqib yaratmasını istəyirlər ki, onların başı qarışsın və xalq da rahat yaşasın. Bundan sonra ilahə Aruru əlinə bir qədər palçıq götürür və ona forma verərək dəmir kimi sərt olan, vəhşi heyvanlar içərisində yaşayan Enkidunu yaradır. Dastanın məzmunundan aydın olur ki, qədim şumerlərin təfəkküründə insana xas olan bütün xüsusiyyətlər ona Allahlar tərəfindən verilmişdir, insan Allah tərəfindən yaradılmışdır. Qədim Şumerlərin dünyagörüşündə bu cəhəti aşkar edən S.Kramer yazır: “Şumer mütəfəkkirləri öz dünyagörüşlərinə uyğun olaraq insana və onun roluna o qədər inanmırdılar. Onlar möhkəm əmin idilər ki, insan gildən (palçıqdan) yapılmış və ümumiyyətlə, Allahlar tərəfindən ona görə yaradılmışlar ki, onlara yemək və içmək gətirsinlər, onlar üçün müqəddəs yerlər tiksinlər,

onlara hər cür qulluq göstərsinlər ki, Allahlar da heç nəyin qayğısını çəkmədən özlərinin Allahlıq işləri ilə məşğul olsunlar" [10, s.130].

Ümumiyyətlə, "Bilqamıs" dastanında mifoloji izlər (etnoloji və kosmoloji), əfsanələr, tarix və dini inanclar bir-birilə vəhdət təşkil edir. Eposda IX və XI lövhələrdə Nuh tufanı ilə bağlı əfsanə yer alır ki, bu da birbaşa dünyanın yaranması, bunun müqabilində də insanın yaranması ilə bağlıdır. Bu hadisə Bilqamısın dostu Enkidunun ölümündən sonra sarsılması və ölümsüzlük axtarışına çıxması ilə başlayır. Bilqamıs vaxtilə ölümsüzlük, əbədi həyat qazanmış Utnapişti ilə görüşür. Utnapişti onun gəlişindən məyus olur və onu başa salır ki, insanın ömrü heç vaxt əbədi ola bilməz, o nə vaxtsa, haradasa tamamlanmalıdır. Ona görə də insan sağlığında yaşamının dəyərini bilib xeyirxahlıq etməli, xalqına ədalətli xidmət göstərməlidir. Bilqamıs Utnapiştinin insan olduğu halda, əbədi həyatı necə qazandığını soruşur. Burada da dastan içərisində digər bir əhvalatla tanış oluruq. Utnapişti ona öz həyatından danışır və sirr olaraq saxladığı tufan əhvalatını nəql edir. Bildirir ki, Tanrılar Anu, Enlil, Ea və digərləri bir gün Fərat çayı sahilindəki Şuruppak şəhərinin yanında olarkən səbəbi bilinməz formada insanlara tufan göndərməyi qərara alırlar. Allahların bu qərarını Utnapiştiyə söyləyən isə tanrı Eadır. Ea Utnapiştiyə hər şeyini tərk edib ölçüləri bərabər olan bir gəmi hazırlayaraq canlıların hər növündən gəmisinə alaraq qaçmasını deyir. Eposun məzmunundan aydın olur ki, gəmi insanların köməyilə hazırlanır, Utnapişti əlinə keçən bütün qızıl və gümüşü, soyunu, kökünü, heyvanları gəmiyə yükləyir. Beləliklə, dəhşətli tufandan sağ çıxmağa nail olur. Bundan sonra etnosun yaranması prosesi baş verir. Dastandakı Utnapişti obrazı qədim kitablardakı Nuhla eyniləşdirilir.

"Oğuz kağan" eposu qədim türk eposunun ən qədim və mükəmməl arxaik dastanlarından biridir. Dastanın e.ə. I minilliyin sonlarında formalaşdığını güman edirlər. Bizim eranın I minilliyində türklər arasında geniş yayılmış, mənşəyi, tipologiyası baxımından ümumtürk xalqlarının qiymətli nümunəsidir. "Oğuz Kağan" dastanı Ay Kağanın onu, yəni Oğuz Kağanı dünyaya gətirməsilə başlayır. "Bilqamıs" dastanında insanın yaradılışı prosesi Allahların insanı palçıqdan yaratması motiviylə verilmişdi. Lakin "Oğuz Kağan" dastanında doğuluş motivi özünü göstərir. Oğuz Kağan tez bir zamanda cəsur bir igid olaraq böyüyür, düşmənləri ilə vuruşmalara girərək böyük qələbələr qazanır. Dastanda onun igidliklərindən, hərbi yürüşlərindən, altı oğlunun dünyaya gəlməsindən, sonra isə yaşlanıb böyük Türk elini oğulları arasında paylamasından bəhs olunur.

"Oğuz kağan" dastanının mifoloji problemlərinin araşdırılması, həmçinin onun türk mifoloji düşüncəsində yeri barədə ilk addımı məşhur türk alimi Bahəddin Ögəl atmışdır. B.Ögəl əsərin XIII əsrdən sonra yazıldığını göstərir, lakin mövzusunun çox qədim olduğunu da bildirir. Oğuz kağanın atasının adını yanlış olaraq "Ay Kağan" (əslində "Ay Kağan" anasının adıdır) olaraq qəbul edir: "Oğuz dastanı Çingiz xandan sonra yazılmış olmalıdır. Çünki içində "nökər" və sair kimi Çingiz xan dövlətində işlənən terminlərdən də istifadə edilmişdir. Lakin bunu da yaxşı bilirik ki, Çingiz xan dövründə yazılmış əsərlərdə Oğuz xanın atası həmişə Qara xan kimi göstərilmişdir. Bu faktı farsca tarixlərdən çox yaxşı müəyyənləşdiririk. Əsər XIII əsrdən sonra yazılmış olmalıdır. Lakin mövzu çox qədimdir" [3, s.148].

Dünya və eyni zamanda ümumtürk yaradılış mifləri üçün ortaq olan motivlərdən biri də yaradılışın doğulma formasında baş verməsidir. Törənişin (doğuluşun) müxtəlif formalarını ən mükəmməl şəkildə araşdıran tədqiqatçılarımızdan biri Nail Qurbanov ağacdan doğulma mifologemi ilə bağlı yazır: "İnsanın yaradıldığı stixiyalar arasında müşahidə edilən ünsürlərdən biri də ağacdır. Hələ ta qədimlərdən dünya xalqları ağaca müqəddəs varlıq kimi yanaşmışlar. Bu baxımdan əski düşüncələrdə ağac bir kult, eyni zamanda yaradılış predmeti səviyyəsində səcdə obyektinə çevrilmişdir" [9, s.112]. Bəzi araşdırmaçılar törənişin sudan doğulma, gün işığından doğulma, gözdən doğulma kimi motivlərini qeyd edirlər, hansı ki bu motivlər öz başlanğıcını ilk insanın törənişi ilə bağlı təsəvvürlərdən götürür. Lakin həmin təsəvvürlər mif şəklində günümüzə gəlib çatmayıb, yalnız folklor nümunələrinin içərisində mifologem səviyyəsində qorunaraq dövrümüzə qədər gəlib çata bilmişdir. "Oğuz mifologiyası" adlanan monoqrafiyasında doğuluş konsepti ilə bağlı geniş təhlil aparmış Seyfəddin Rzasoyun gəldiyi qənaətə görə, Oğuz kağanın bir insan olaraq doğuluşu eyni zamanda canlı və cansız dünyanın bütün mənalı ünsürlərinin doğuluşunu özündə işarələyir: "Doğuluş – bir mifologem olaraq mifoloji kosmogenezin əsasını təşkil edir. Mifoloji dünya modelində gerçəkləşən dünyanın strukturunun bü-

tün özünəməxsusluğu bu doğuluşa müncər olunur. Doğuluş öz strukturuna görə qatbaqat paradiqmatik quruluşa malik bir semiotik sistemdir. Burada doğuluş – yaradılışla bağlı müxtəlif süjet, mifologem və obrazlar bir-biri ilə paralelləşmiş və bir-birinə transformasiya olunmuşdur” [13, s.92].

Türk dövlətinin qurucusu, Boz qurdun himayədarlıq etdiyi Oğuz Kağan Tanrı mənşəlidir. Dastanın məzmunundan bəlli olur ki, Oğuzun altı oğlundan üçü göy (qədimdə Göy və Tanrı sözləri eyni mənanı ifadə etmişlər) mənşəlidir, bütövlükdə hamısı nizamlı dünyanı yaradırlar və Oğuz Kağanın bölgüsü ilə bozoklar və üçoklar adı altında türk dövlətinin idarəçilərinə çevrilirlər. Oğuz Kağanın türk dövlətini himayə etməsi, türk tayfalarını ayrıca adlandırması, göy mənşəli və s. olması onun ilkin əcdad səviyyəsində olmasını səciyyələndirir.

Tədqiqat apardığımız “Oğuz Kağan” və “Bilqamıs” dastanlarının hər birində ilk insanın və dünyanın yaranması motivi mifopoetik düşüncənin bilavasitə eposda təzahürü kimi özünü göstərir. “Oğuz Kağan” dastanında daha çox kosmoqonik prosesin nəticəsini, yəni etnosun, xalqın yaranması prosesinin aydın təzahürünü görürük. “Bilqamıs” dastanı isə qəhrəmanlıq dastanı olmaqla, özündə mifoloji dünya modelini, kainatın yaranması prosesini əks etdirməklə bərabər, həmçinin, insanın yaradılışı konsepsiyasını da paralel olaraq özündə təzahür etdirir.

## Nəticə / *Conclusion*

Belə qənaətə gəlirik ki, ümumtürk mifologiyasının əsasını xüsusən yaradılış, törəyiş fəlsəfəsi, yəni etnoloji və kosmoloji proseslər təşkil edir. Ümumtürk mifologiyasında biz yaradılışın, törəyişin rəngarəng təsvirini görə bilərik. Elə bu təsvirlər sonradan zəngin türk mifologiyasının yaranmasına gətirib çıxarır.

## Ədəbiyyat / *References*


1. Aydın Abi Aydın. Türkiyə Ədəbiyyatı Tarixi. I cild. Bakı: Təknur, 2010.
2. Azərbaycan Ədəbiyyatı Tarixi. On cilddə. I cild. Şifahi xalq ədəbiyyatı. Bakı: Elm, 2018.
3. Bahəddin Ögəl. Türk Mifologiyası. I cild. Bakı: MBM, 2006.
4. Bilqamıs dastanı. Hər şeyi bilən adamın dastanı. Bakı: Qanun, 2020.
5. Elman Quliyev. Türk Xalqları Ədəbiyyatı. Bakı, 2014.
6. Əbülfəz Rəcəbli. Qədim Türk Yazısı Abidələri. Dörd cilddə, I cild. Bakı: Nurlan, 2009.
7. Füzuli Bayat. Oğuz epik ənənəsi və Oğuz Kağan dastanı. Bakı: Sabah, 1993.
8. İslam Sadıq. Şumer və Türk dastanları. Bakı: Azərnəşr, 2012.
9. Nail Qurbanov. Azərbaycan folklorunda mifoloji-kosmoqonik görüşlər. Bakı, 2011.
10. Nihad Sami Banarlı. Resimli Türk Edebiyatı Tarihi. İstanbul, 1983.
11. Nizami Cəfərov. Türk Xalqları Ədəbiyyatı. Qədim dövr. Bakı: Çaşıoğlu, 2006.
12. Semuel Noah Kramer. Tarix Şumerdən Başlanır. Bakı, 2009.
13. Seyfəddin Rzasoy. Oğuz Mifologiyası. Bakı: Nurlan, 2009.
14. Лосев А.Ф. Диалектика мифа. Из ранних произведений. Ленинград, 1990.


# Отражение этнологических и космологических процессов в эпосах “Бильгамис” и “Огуз каган”

**Назрин Алиева**
E-mail: nezrina890@gmail.com

**Резюме.** Дастаны “Билгамис” и “Огуз Каган”, отражая богатые традиции мировой эпической культуры, являются одним из важнейших источников, образцов творчества, несущих

отпечаток космологических и этнологических процессов в системе мифологического мышления древних людей. На примерах архаического эпоса, которые отмечены в проведенной исследовательской работе, к исследованию был привлечен вопрос об отражении первоначальных представлений древних тюрков о происхождении космоса и человека. Трансформация мифологической мысли, элементов и образов в эпических текстах, в свою очередь, определили важное место, которое занимает эпосное творчество в процессе национального самосознания. В исследовании сходства эпического творчества шумеров и древних тюрков, близость шумерской и тюркской истории были привлечены к исследованию при сравнении эпосов "Бильгамис" и "Огуз Каган".

**Ключевые слова:** Бильгамис, Огуз Каган, этнос, мифология, мир